QANUN № 02 (352), 2024, s. 58-62

**Həsənova Reyhanə Əhməd qızı,**
Bakı Dövlət Universitetinin Mülki hüquq kafedrasının qiyabi doktorantı
E-mail: hesenova.rey@gmail.com

**UOT 34:347**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.15**

# İDDİA MÜDDƏTİNİN AXIMININ KƏSİLMƏSİ

***Açar sözlər:*** *iddia, müddət, hüququn müdafiəsi, iddia müddəti.*

***Ключевые слова:*** *иск, срок, защита права, срок исковой давности.*

***Keywords:*** *lawsuit, period, protection of the right, period of limitation.*

İddia müddətinin axımının kəsilməsi, qanunda müəyyən edilmiş əsaslar baş verərsə, iddia müddətinin axımının davam etməsində fasilənin yaranması deməkdir. Lakin belə fasilədən sonra iddia müddətinin axımı yenidən başlanır və fasiləyə qədərki vaxt yeni müddətə daxil edilmir. Başqa sözlə, həmin zaman kəsiyi öz hüquqi əhəmiyyətini itirir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – AR MM) 380.1-ci maddəsində iddia müddətinin kəsilməsinin iki əsası müəyyənləşdirilir. Kəsilmə əsaslarının dairəsi konkretdir və genişləndirici təfsir edilə bilməz. Bunlara aşağıdakılar aiddir:

1. Müəyyənləşdirilmiş qaydada iddianın irəli sürülməsi.
2. Borclu şəxsin borcu etiraf etməsini göstərən hərəkətlər etməsi.

**Müəyyənləşdirilmiş qaydada iddianın irəli sürülməsi.** Göründüyü kimi, sadəcə iddianın irəli sürülməsi iddia müddətinin axımının kəsilməsi əsası kimi çıxış etmir. Qanunla iddianın verilməsi üçün müəyyənləşdirilmiş bütün tələblərə əməl edilməsi "müəyyənləşdirilmiş qaydada" iddianın irəli sürülməsi hesab olunur. Məsələn, iddianın məhkəmə aidiyyəti, ərazi aidiyyəti qaydalarına əməl edilməklə verilməsi (Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – AR MPM) 3-cü və 4-cü fəsilləri), müəyyən edilmiş forma və məzmun tələblərinə əməl edilməsi (AR MPM-in 149-cu və 150-ci maddələri), tələb hüququ olan şəxs tərəfindən iddiaya cavab verməli olan şəxsə verilməsi, dövlət rüsumunun (tələb edildiyi halda) ödənilməsi və s. hallar nəzərdə tutula bilər.

Digər bir məqam isə "iddianın irəli sürülməsi" ifadəsi ilə əlaqədardır. "İrəli sürülmə" ifadəsi özlüyündə cavabdeh şəxsdən müəyyən hərəkətin edilməsini tələb etməklə əlaqədar olsa da, "müəyyənləşdirilmiş qayda"ya tabe tutulması belə tələbin məhkəmə vasitəsilə edilməsini göstərir. Yəni "iddianın irəli sürülməsi" dedikdə "məhkəməyə müraciətin edilməsi" başa düşülməlidir. Bu yanaşma ilə məhkəməyə müraciət anı iddia müddətinin kəsilmə anıdır. Məhkəməyə müraciət anı ərizənin məhkəməyə təqdim edilməsi və ya poçtla göndərilməsi anı (zərfin üzərindəki poçt ştempelinin vurulduğu an) ilə əlaqələndirilməlidir.

Lakin məhkəməyə verildikdən sonra iddia qaytarılma əsasları və mümkünlüyü baxımından yoxlanılır. Deməli, iddia müddətinin kəsilməsi

anının müəyyən edilməsində həmin hallar da nəzərə alınmalıdır. Məsələn, AR MPM-in 152-ci maddəsində müəyyən edilmiş iddia ərizəsinin və ona əlavə edilmiş sənədlərin geri qaytarılması əsasları olarsa hakim qərardad çıxarır və bu halda iddia müddətinin axımının kəsilməsi nöqsanların aradan qaldırılması və ya qərardaddan şikayətin nəticəsindən asılı olaraq müəyyən ediləcəkdir. Və ya AR MPM-in 153-cü maddəsinə əsasən iddianın yolverilməzliyinə görə məhkəmə iddianı qəbul etməkdən imtina haqqında qərardad qəbul edir. Bu halda kəsilmə anı qərardaddan şikayətin nəticəsindən asılı olacaqdır. Sadalanan hallar iddiaçının xeyrinə nəticələnərsə, iddia müddətinin axımının kəsilməsi məhkəməyə ilkin müraciət anında baş verəcəkdir.

Bu məsələ ilə əlaqədar bir sıra hallara aydınlıq gətirilməlidir. Məsələn, iddia irəli sürüldükdən sonra başqa cavabdehin cəlb edilməsi halında iddia müddətinin axımının kəsilməsi anı hər bir cavabdehə münasibətdə fərdi olaraq hesablanmalıdır. Belə ki, ilkin cavabdehə münasibətdə məhkəməyə ərizə ilə ilkin müraciət tarixi, sonradan cəlb edilən cavabdehə münasibətdə isə onun cəlb edilməsi üçün müraciətin edildiyi tarix – yəni, ona qarşı iddianın irəli sürüldüyü vaxt iddia müddətinin axımının kəsilməsi anıdır.

Digər bir məqam isə tələb hüququ olmayan iddiaçı tərəfindən iddianın irəli sürülməsi ilə əlaqədardır. AR MPM-in 54-cü maddəsi əsl olmayan tərəfin əvəz edilməsinə imkan yaradır. Belə olan hallarda iddia müddətinin axımı əsl olmayan tərəfin əvəz olunması barədə məhkəmənin aktı qəbul edildiyi andan kəsilir [2].

AR MPM-in 53-cü maddəsində iddiaçının işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər iddianın əsasını və ya predmetini dəyişməyə, iddia tələbinin həcmini artırmağa və ya azaltmağa hüququnun olması göstərilir [2]. Lakin bu hallar iddia müddətinin kəsilməsi anının dəyişməsinə səbəb olmur. Bu zaman iddia müddətinin axımının kəsilməsi anı müəyyənləşdirilmiş qaydada məhkəməyə müraciətin edilməsi anıdır.

O da nəzərə alınmalıdır ki, yalnız məhkəməyə sürülmüş iddia tələbinin çərçivəsində kəsilmə baş verir. Yəni eyni məsələ ilə əlaqədar olmasına, bir-biri ilə nə qədər sıx bağlı olmasına baxmayaraq məhkəmədə iddia qaldırılmamış hissəyə münasibətdə müddət kəsilə bilməz. Məsələn, AR MM-in 157-ci maddəsinə əsasən, mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən öz əmlakını geri tələb edə bilər. Mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən əmlakını geri tələb edərkən, bu şəxsin əmlaka sahibliyinin qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu halda (vicdansız sahib), əmlakın onda olduğu bütün vaxt ərzində onun götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılmasını və ya əvəzinin ödənilməsini də tələb edə bilər; vicdanlı sahibdən isə onun əmlaka sahibliyinin qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu vaxtdan və ya əmlakın qaytarılmasına dair mülkiyyətçinin iddiası üzrə məhkəmə bildirişini aldığı vaxtdan götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılmasını və ya əvəzinin ödənilməsini tələb edə bilər [1]. Göstərilən misalda bir-biri ilə əlaqəli, eyni əmələgəlmə əsasına malik olan iki cür tələb hüququ öz əksini tapır:

1) əmlakın geri tələb edilməsi;

2) onun götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılması və ya əvəzinin ödənilməsi.

Əgər şəxs yalnız özgəsinin qanunsuz sahibliyindən əşyanın tələb edilməsi ilə əlaqədar iddia irəli sürərsə, iddia müddəti yalnız həmin tələbə münasibətdə kəsiləcəkdir. Bütün gəlirlərin qaytarılması və ya əvəzinin ödənilməsi üzrə iddia müddətinin axımı davam edəcəkdir.

Eyni zamanda, iddia məhkəmə tərəfindən baxılmamış da saxlanıla bilər. AR MPM-in 259-cu maddəsində iddianın baxılmamış saxlanılmasının əsasları müəyyən edilir. İddianın baxılmamış saxlanılmasının hüquqi nəticəsi belədir ki, buna

səbəb olan şərait aradan qaldırıldıqdan sonra maraqlı şəxs ümumi qaydada ərizə ilə məhkəməyə yenidən müraciət edə bilər. Göstərilənlər nəzərə alınaraq, AR MM-in 381-ci maddəsi iddianın baxılmamış saxlanılması halında iddia müddətinin axımına dair normaları müəyyən edir. Burada adi qaydada irəli sürülmüş iddia ilə cinayət işində irəli sürülmüş iddialara olan tənzimləmə fərqli müəyyən edilmişdir. Belə ki, əgər iddia məhkəmə tərəfindən baxılmamış saxlanmışdırsa, iddia irəli sürülənədək başlanmış iddia müddətinin axımı ümumi qaydada davam edir. "Ümumi qayda" iddia müddətinin kəsilmə faktının baş verməməsi, iddia müddətinin normal qaydada davam etməsidir. Cinayət işində irəli sürülmüş iddia məhkəmə tərəfindən baxılmamış saxlanmışdırsa, iddia irəli sürülənədək başlanmış iddia müddətinin axımı iddianı baxılmamış saxlayan hökm qanuni qüvvəyə minənədək dayandırılır. Müddətin dayandırıldığı vaxt iddia müddətinə daxil edilmir. Bu zaman müddətin qalan hissəsi altı aydan az olduqda altı aya qədər uzadılır (AR MM-in 381.2-ci maddəsi). Deməli, cinayət işində iddianın irəli sürülməsi iddia müddətinin kəsilməsi hesab edilməməlidir. Verilən tənzimləmədə bu hal iddia müddətinin dayandırılması əsası kimi müəyyən edilmişdir. İddianın verildiyi vaxtdan hökmün qüvvəyə minməsinədək olan vaxt – nəticədən, yəni hökmün qüvvəyə minib-minməməsindən asılı olmayaraq dayanmış olur və iddia müddətinə daxil edilmir.

**Borclu şəxsin borcu etiraf etməsini göstərən hərəkətlər etməsi.** Borclu şəxsin borcu etiraf etməsini göstərən hərəkətlər etməsi iddia müddətinin kəsilməsinin digər bir əsası kimi çıxış etsə də, bu məsələ ətrafında aydınlaşdırılmalı olan məqamlar çoxdur. Belə ki, bu əsas ilə əlaqədar AR MM-də demək olar ki, heç bir birbaşa tənzimləmə yoxdur. Buna görə də onun məhkəmə təcrübəsində tətbiqi ilə əlaqədar bir sıra çətinliklər meydana çıxır.

İlk növbədə, burada borc dedikdə, yalnız "borc" münasibəti deyil, iddia müddətinə tabe tutulan istənilən "öhdəlik" başa düşülməlidir. "Borcu etiraf etməsini göstərən hərəkətlər" dairəsinə məhz hansı hərəkətlərin aid edilməsinə dair AR MM-də norma müəyyən edilməsə də, mülki hüquq ədəbiyyatlarında borclu şəxsin borcunu etiraf etməsini göstərən hərəkətlərə öz borcundan müəyyən hissəni ödəməsi, borcuna görə müəyyənləşmiş faizləri və ya öhdəliyi icra etmədiyi üçün müəyyən olunmuş cəriməni ödəməsi, əsas borcun qismən tanınması, müqavilədə dəyişikliyin edilməsi və ya belə dəyişikliyin edilməsi üçün cavabdehə müraciətin edilməsi və s. aid edilir. Hər bir individual iş üzrə məhkəmə tərəfindən konkret olaraq işin hallarını nəzərə alınmaqla, hərəkətin borcun etirafını göstərib-göstərməməsi aydınlaşdırılmalıdır.

Eyni zamanda, o da nəzərə alınmalıdır ki, dövri ödənişlərin edilməsi ilə əlaqədar öhdəliklərdə bir dövrün ödənilməsi digər dövrlər üçün də borcun, həmçinin əsas öhdəliyin icrası əlavə öhdəliyin etirafı kimi hesab oluna bilməz.

Hərfi mənasına əsasən, borcun etirafı hərəkətləri məhz "borclu şəxs" tərəfindən edilərsə kəsilmə əsası kimi çıxış edir. Fikrimizcə, bu halda, şəxsin qanuni və ya etibarnamə üzrə nümayəndəsinin bu cür hərəkətləri etməsi kəsilmə əsası hesab olunmalıdır.

Barışıq sazişinin bağlanması və ya barışıq sazişi təklif ilə çıxış edilməsi özlüyündə borcun etirafını göstərən hərəkətlər hesab oluna bilməz. Şəxsin öz öhdəliyini icra etmədiyini qəbul etməsi də iddia müddətinin kəsilməsinə səbəb ola bilməz.

Borclunun borcun üçüncü şəxsə keçməsi üçün kreditora müraciəti borcun etirafı kimi çıxış edə bilər, lakin üçüncü şəxsin belə təklifi borcun etirafı deyildir. Çünki borcun etirafı bilavasitə borclu şəxsin (qanuni nümayəndə və ya etibarnamə üzrə nümayəndəsi) özü tərəfindən edilməlidir.

Aydınlaşdırılması zəruri olan digər bir məqam isə novasiya ilə borclu şəxsin borcunu etiraf

edən hərəkətlər etməsinin fərqləndirilməsidir. Məsələn, lazımi keyfiyyətdə olmayan əşyaya dair pretenziyanı qəbul edən satıcı əşyanın qüsurlarının aradan qaldırılması və ya əşyanın eyni növlü və lazımi keyfiyyətli əşya ilə əvəz etmək yerinə, alıcıya başqa bir əşyanın verilməsini təklif edir. Alıcı da təklif olunan digər malı qəbul etməyə razılığını bildirir, qüsurlu malı isə satıcıya qaytarır. Nəticədə satıcı nə ilkin razılığı, nə də sonrakı öhdəliyi yerinə yetirmir. İlkin razılığa iddia müddəti 3 il, ikinci razılaşmada isə 1 il müəyyən edilmişdir. Alıcı 1 ildən sonra satıcıya qarşı yeni malın verilməsi ilə əlaqədar iddia qaldırır. Satıcı da 1 illik müddət ötürüldüyü əsası ilə iddia müddətinin tətbiqini tələb edir. Belə olan halda, iddia müddəti tətbiq edilməlidir. Çünki bu hal iddia müddətinin kəsilməsi yox, yeni öhdəlik üzrə yeni iddia müddətinin yaranması deməkdir. Bu baxımdan, alıcı ilkin razılaşma üzrə iddia müddəti keçməyibsə həmin razılaşma üzrə iddia irəli sürə bilər. Lakin ikinci razılaşma üzrə iddia müddəti bitdiyindən məhkəmə vasitəsilə tələb hüququ da aradan qalxmış olacaqdır.

AR MM-in 531-ci maddəsinə əsasən, öhdəliyə tərəflər arasında mövcud olmuş ilkin öhdəliyin eyni şəxslər arasında digər predmet və ya icra üsulu (novasiya) nəzərdə tutan başqa öhdəliklə əvəz edilməsi haqqında tərəflərin razılaşması ilə xitam verilir [1]. Deməli, novasiya yeni öhdəliyin götürülməsidir. Burada iki öhdəlik bir-birindən ayrıdır və hər birinə ayrı iddia müddətləri tətbiq olunmalıdır.

Digər bir məsələ isə borcun etirafına dair hərəkətlərin forması ilə əlaqədardır. Ümumilikdə, hansı hərəkətlərin borcun etirafı hesab edilib-edilməməsinin müəyyən edilməsi çətinliklər yaradır və geniş mülahizə sərbəstliyinə gətirib çıxara bilər. Bu baxımdan, bir sıra dövlətlərin qanunvericiliyində borcun etirafının yazılı formada edilməsi qəbul olunmuşdur. Məsələn, İngiltərə "İddia müddətləri aktı"nın 30-cu maddəsinin 1-ci paraqrafında borcun etirafının yazılı formada tərtib edilməsi və etiraf edən şəxs tərəfindən imzalanması tələbi qoyulmuşdur [3]. Etirafın yazılı verilməsi tələbinin qoyulması, yazılı olduqda borclunun öz ifadələrinə daha çox diqqət etdiyi və belə olan halda da qeyri-müəyyənliyin xeyli azalması ilə əsaslandırılır.

Lakin müəyyən problemlərə səbəb olmasına baxmayaraq, fikrimizcə, borcun etirafına dair yazılı tələbin müəyyən edilməsi mülki dövriyyənin rəngarəngliyi baxımından çətinliklərə gətirib çıxara bilər. Həmçinin, mülki münasibətlərin inkişafında əsas tendensiyalardan biri də tərəflər arasında münasibətlərin formallıqdan uzaqlaşdırılması ilə əlaqədardır. AR MM-də də borcun etiraf etməsini göstərən hərəkətlərə dair heç bir forma tələbi müəyyən edilməmişdir. Həm yazılı, həm şifahi şəkildə edilən hərəkətlər, deyilən sözlər borcu etiraf edən hərəkətlər kimi müəyyən oluna bilər.

Nəticə olaraq, borcun etirafı hərəkətinin iddia müddətinin kəsilmə əsası kimi çıxış etməsi üçün əsas şərtləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Borcun etirafı iddia müddəti çərçivəsində edilməlidir;
2. Borcun etirafı borclu şəxs və ya onun lazımi qaydada səlahiyyətləndirdiyi şəxs tərəfindən edilməlidir;
3. Borcun etirafı bilavasitə kreditora edilməlidir;
4. Etiraf qeyri-müəyyən olmamalı, konkret öhdəliyi, borcu ifadə etməli və ya müəyyən edilə bilən olmalıdır;
5. Borcun etirafı birmənalı olmalıdır.

Son olaraq nəzərə alınmalıdır ki, tədqiq olunan hallar yalnız o halda iddia müddətinin kəsilmə əsası kimi çıxış edə bilər ki, iddia müddəti daxilində edilmiş olsun. Yəni iddia müddəti keçdikdən sonra müəyyənləşdirilmiş qaydada iddianın irəli sürülməsi və ya borclu şəxsin borcu etiraf etməsini göstərən hərəkətləri etməsi iddia müddətinin kəsilməsinə və yenidən başlanmasına gətirib çıxarmır.

**İstifadə edilmiş mənbələr:**

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi // 28 dekabr 1999-cu ildə qəbul edilmişdir: [Elektron resurs] / URL: http://e-qanun.az/framework/46944
2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi// 28 dekabr 1999-cu ildə qəbul edilmişdir: [Elektron resurs] / URL: https://www.e-qanun.az/framework/46945
3. Limitation Act, 1980: [Electronic resource] / URL:https:// https://www.legislation.gov.uk/ukpga/1980/58
4. Грибанов В.П. Осуществление и защита гражданских прав. – М.: Статут, 2000.
5. Розенберг М.Г. Исковая давность в международном коммерческом обороте. – М.: Статут, 1999. – 144 с. С.49-50, 52-53.

**Гасанова Рейхана Ахмед гызы**

**ПРИОСТАНОВЛЕНИЕ ИСКОВОЙ ДАВНОСТИ**

**РЕЗЮМЕ**

Статья рассматривает процедуру приостановления исковой давности, предоставляя обзор основных моментов и причин, по которым она может быть применена. Автор также анализирует последствия данного правового механизма для сторон и рассматривает сценарии, в которых его использование может быть целесообразным.

**Hasanova Reyhana Ahmad**

**SUSPENSION OF THE STATUTE OF LIMITATIONS**

**SUMMARY**

The article explores the procedure of suspending the statute of limitations, providing an overview of its key aspects and reasons for its application. The author also analyzes the consequences of this legal mechanism for the parties involved and considers scenarios in which its use may be advisable.

**Redaksiyaya daxilolma tarixi: 23.01.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 27.01.2024**
**Çapa qəbul olunma tarixi: 01.02.2024**